AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

M. F. AXUNDOV adına

AZƏRBAYCAN MİLLİ KİTABXANASI

# *HEYDƏR ƏLİYEV*
# İRSİNİN ÖYRƏNİLMƏSİ VƏ T
# ƏBLİĞİ SAHƏSİNDƏ KİTABXA
# NALARIN VƏZİFƏLƏRİ

BAKI – 2005

**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT NAZİRLİYİ**

**M.F. AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

# *HEYDƏR ƏLİYEV*
# İRSİNİN ÖYRƏNİLMƏSİ VƏ T ƏBLİĞİ SAHƏSİNDƏ KİTABXA NALARIN VƏZİFƏLƏRİ

METODİK VƏSAİT

**BAKI – 2005**

*İxtisas redaktoru:* **K. M. Tahirov**

*Tərtib edən:* **D. Bayramov**

*Redaktor:* **S. İsayeva**

*Nəşriyyat redaktoru:* **T. Ağamirova**

*Korrektor:* **Ş. Əhmədova**

*Kompüter dizaynı:* **Z. Qulamova**

**Heydər Əliyev irsinin öyrənilməsi və təbliği sahəsində kitabxanaların vəzifələri: Metodik tövsiyələr /İxtisas redaktoru: K.Tahirov., Tərt. edəni: D.Bayramov.- B.: 2005.- 49 s.**

**© M.F.Axundov ad. Milli Kitabxana, 2005**



***Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.***

**HEYDƏR ƏLİYEV**

# MÜQƏDDİMƏ

Ümummili liderimiz, xalqımızın böyük oğlu Heydər Əlirza oğlu Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən görkəmli sima, dövlət idarəçiliyi sahəsində böyük, təcrübəli siyasət adamı, dövlət xadimi idi. Bu fenomenal şəxsiyyət Azərbaycanımızın, dövlətimizin tarixində əbədi qalacaq və həmişə anılacaq şəxsiyyətdir.

Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr etmiş mətin dövlət xadimi, xalqını hədsiz sevən qüdrətli şəxsiyyətdir. Xüsusi vurğulamaq lazımdır ki, Heydər Əliyev birinci dəfə Azərbaycana rəhbər təyin olunanda respublikamızda iqtisadi gerilik və mənəvi süstlük hökm sürürdü. Fəaliyyətə başladıqdan sonra qısa müddət ərzində respublikamızda oyanış və bütün sahələrdə əsaslı irəliləyiş baş verdi. Bu canlanma ölkəmizdə iqtisadi inkişafa, mədəni və mənəvi yüksəlişə gətirib çıxartdı. Çətin dövrdə Azərbaycanın elə bir bölgəsi olmadı ki, orada yeni sənaye, energetika, kənd təsərrüfatı müəssisəsi, mədəniyyət, elm və təhsil ocağı tikilməsin. Yeri gəlmişkən deməliyik ki, Sovet İttifaqının həmin dövrü durğunluq dövrü kimi qiymətləndirilirdi. Aparılan iqtisadi təhlillər, statistik təhlillər göstərir ki, uzaqgörən cənab Heydər Əliyev durğunluq dövrünü yaşayan ölkənin bir respublikasında real iqtisadi inkişafa nail olmuşdur. Şübhəsiz ki, bütün bunlar Ümummili liderimizin qeyri-adi təşkilatçılıq qabiliyyəti, iqtisadiyyatın inkişafı yollarını aydın görməsi və dərindən bilməsi nəticəsində aydın olmuşdur.

Dərin düşüncə təfəkkürünə malik olan dahi rəhbər Heydər Əliyev Sovet İttifaqının böyük sənaye və maliyyə potensialından öz xalqının xeyri üçün məharətlə istifadə etməyi bacaran, son dərəcə uzaqgörən və dərin məntiqə malik dövlət xadimi idi. Həmin dövrdə Azərbaycanda

tikilən yüzlərlə müəssisə bu gün xalqımızın milli sərvətidir. Haqlı olaraq bütün bunlar həmişəyaşar Heydər Əliyevə əbədi ümumxalq məhəbbəti qazanmışdır. Qeyri-adi siyasi təfəkkürü, böyük dövlətçilik təcrübəsini və fenomenal qabiliyyəti özündə əks etdirən Heydər Əliyevin xalqımız üçün gördüyü hər bir iş xalqımız üçün tarixi əhəmiyyətə malikdir. Bütün bunlarla yanaşı, dövlət müstəqilliyini qazanmış Azərbaycanın düşmən qüvvələr tərəfindən yer üzərindən silinməsinə qarşı apardığı mübarizə, dövlətçiliyimizin qorunub saxlanması yolunda göstərdiyi misilsiz fədakarlıq Azərbaycan tarixində əbədiləşəcəkdir. Aradan keçən on ildən sonra aydın şəkildə dərk edirik ki, Azərbaycan dövlətçiliyini qoruyub saxlamaq nə qədər çətin və eyni zamanda şərəfli işdir. Əlbəttə bu yolda Cənab Heydər Əliyevə göstərilən təziqlər, sui-qəsd cəhdləri xalqımızın yaddışına həkk olunub. Lakin möhkəm qətiyyət və iradəyə malik olan milli liderimiz bu qüvvələrə açıq şəkildə bəyan etdi ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq üçün canından keçməyə hazırdır və onu heç bir kəs bu yoldan döndərə bilməz. Bunu iftixarla qeyd etməliyik ki, dövlət başçısının göstərdiyi qətiyyət xalqımıza da qol-qanad verdi və öz böyük oğlu ilə bərabər milli müstəqilliyimizi qoruyub saxlamaq üçün mübarizəyə qalxdı. Hər şeyi suzgəcdən keçirərək deyirik ki, bugünkü müstəqil Azərbaycan dövləti ümummili liderimizin xalqımıza ən böyük töhfəsi və əmanətidir. İndi hamımızın borcu siyasi mənsubiyyətindən, əqidəsindən asılı olmayaraq, bu əmanəti əbədi olaraq qoruyub saxlamaqdır.

Bu gün böyük iftixar hissi ilə deməк lazımdır ki, xalqımızın böyük oğlu Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi olmaqla bərabər, sözün həqiqi mənasında böyük insan və bütöv şəxsiyyətdir.

Tarixin bəxş etdiyi nadir şəxsiyyət olan H.Əliyev ümumən mədəniyyətə və onun inkişafına hərtərəfli diqqət

yetirirdi. Bunu onun M.F.Axundov adına indiki Milli Kitabxanaya göstərdiyi qayğının timsalında daha aydın görmək olar. Yeri gəlmişkən xüsusi vurğulanmalıdır ki, bu qayğıya görə kitabxananın direktorluğu və onun kollektivi xalqımızın böyük oğlu H.Əliyevin və hörmətli prezidentimiz İlham Əliyevin qayğısını yüksək qiymətləndirir. Milli Kitabxana əmin edir ki, bundan sonra da, Heydər Əliyevin tükənməz irsinin respublikamızın bütün kitabxanaları tərəfindən geniş təbliğinə son dərəcə həssaslıqla yaranacaqdır.

# HEYDƏR ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN QISA TARİXLƏRİ

* Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur.

* 1939-cu ildə Naxçıvan Pedoqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

* 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmişdir.

* H.Əliyev 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir.

* H.Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor vəzifəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt Peterburq) xüsusi ali təhsil almışdır.

* 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

* Azərbaycan KPMK-nın 1969-cu il iyul plenumunda H.Əliyev Azərbaycan KPMK-nın birinci katibi seçilmişdir.

* 1982-ci ilin dekabrında Sov.İKPMK Siyasi bürosunun üzvü seçilən H.Əliyev SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur.
* Heydər Əliyev 20 il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

* Heydər Əliyev 1987-ci ilini oktyabrında Sov.İKPMK Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorboçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

* H.Əliyev 1990-cı ilin 20 Yanvarında Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı, ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyununda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

* 1990-cı ilin iyununda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

* H.Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Soveti Sədrinin muavini olmuşdur.

* H.Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

* 1993-cü ilin may-iyununda hökumət böhranının kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular.

* Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin, səlahiyyətlərini həyata keçirməyə başladı.

* 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan respublikasının prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının prezidenti seçilmişdir.

* Heydər Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermişdir. Lakin səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

* Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

## AZƏRBAYCANIN TANINMIŞ ADAMLARI HEYDƏR ƏLİYEV HAQQINDA

Heydər Əliyev bütün həyatını, ömrünü dilimiz. Torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edir.

***Mirvarid Dilbazi,***
***Xalq şairi***

Tarix Heydər Əliyev xəttinin düzgünlüyünü, onun butun düyünləri aça bilən dərin siyasi zəkasını bir daha sübuta yetirdi.

***Murtuz Ələsgərov,***
***Milli Məclisin sədri***

Xalqımızın yüz illərlə mübarizə apardığı, həsrətində olduğu dövlət müstəqilliyimizi Siz əzmlə qoruyub saxlaya bildiniz.

***Hüseyn Abbaszadə,***
***Yazıçı***

H.Ə.Əliyevin zəngin dövlətçilik təcrübəsindən, dərin təfəkküründən, biliyindən, dünyagörüşündən və fitri siyasətçi istedadından istifadə edərək milli dövlətçilik ənənəsinin etibarlı bazasını yaratmalıyıq. Son illərdə dövlət müstəqilliyimiz üçün ən ciddi təhlükələrin qarşısını xalqımızın və möhtərəm prezidentimizin müdrikliyi alıbdır. Təhlükəsizliyin uzun ömürlülüyü, stabil qarantı milli dövlətçilik ənənəsi və onun işlək mexanizmidir.

***R.Ə.Mehdiyev,***
***Azərbaycan Respublikası Prezidentinin İcraAparatının rəhbəri***

Heydər Əliyevin Naxçıvandan Bakıya böyük siyasətə qayıdışı şərəfli xilskar missiyasına -

Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir. Bu gün həmin missiya böyük uzaqgörənliklə və müdrikliklə yerinə yetirilir.

***Vasif Talıbov,***
***Naxçıvn Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin üzvü***

Heydər Əliyev öz siyasəti ilə Azərbaycanın adını qaldırdı, dünyaya tanıtdırdı.

***Bəxtiyar Vahabzadə,***
***Xalq şairi***

Biz tam qətiyyət və inamla XX əsrin sonunu «Azərbaycan möcüzəsi» dövrü adlandıra bilərik. Bütün bunlar üçün biz Sizə və yenə də Sizə minnətdarıq.

***Nəbi Xəzri,***
***Xalq şairi***

Azərbaycan Respublikasının prezidenti Azərbaycan xalqının inkişafını, rifahını Azərbaycan mədəniyyəti naminə nəsə eləməklə ölçür, onunla görür.

***Elçin, yazıçı***

Mən onu deyə bilərəm ki, Heydər Əliyevin Azərbaycana gəlişi xalqımıza sülh, əmin-amanlıq gətirdi.

O, həmişə bizim incəsənətimizin, ən ali qiymətvericisi, ilhamçısı olmuşdur.

***Zeynəb Xanlarova, Milli Məclisin üzvü, Xalq artisti***

Elmin, təhsilin, mədəniyyətin kamil bilicisi kimi prezident Heydər Əliyevin qayğısı və diqqəti biz təhsil işçilərində də nikbinlik hissi oyadır. Azərbaycan elmini və

təhsilini daha yüksəklərə qaldırmaq üçün fədakar əməyə həvəsləndirir.

***Misir Mərdanov,***
***Azərbaycan Respublikasının təhsi naziri, professor***

Heydər Əliyev yeni Azərbaycanın qurucusudur. Ümumqafqaz evinin yaradılması uğrunda mübarizədə bütün Qafqazın mudrik ağsaqqalı, zəmanəmizin dahi dövlət xadimi Heydər Əliyevin ideyalarını yerinə yetirməyə çağırıram.

***Yaqub Mərdanov,***
***Tarix elmləri doktoru, professor, Milli Məclisin üzvü***

Bizim prezidentimiz ən müdrik, uzaqgörən bir insan idi.

***Adilə Namazova,***
***Akademik***

Heydər Əliyevin hakimiyyətə qayıdışı zamanın tələbi idi.

***Cəfər Vəliyev,***
***Respublikanın əməkdar hüqüqşünası, professor***

Dilimizdən söhbət düşərkən unudulmaz Heydər Əliyevin Azərbaycan dilinə, onun işlənmə potensialına və imkanlarına verdiyi böyük əhəmiyyət və diqqəti, təkidli çağırışları qeyd etmək mümkün deyil.

***Kamal Abdullayev,***
***Professor***

Heydər Əliyev Müstəqil Azərbaycanın banisidir.

***Şahlar Əsgərov,***
***Milli Məclisin üzvü***

Heydər Əliev böyük siyasətin, böyük diplomatiyanın Füzulisidir.

***Fərəməz Maqsudov,***
***Akademik***

Heydər Əlirza oğlu Azərbaycanın gələcəyinə inandığı kimi inanıram ki, möhtərəm prezidentimizlə əl-ələ verib Azərbaycanımızı necə ki, indiyədək çıxarıb, indən belə də bütün müsibətlərdən çıxaracaqdır.

O, siyasət dünyasında, beynəlxalq aləmdə çox qısa bir mərhələdə Azərbaycanın şöhrətini geniş yaydı.

***Zəlimxan Yaqub,***
***Xalq şairi, Milli Məclisin üzvü***

Heydər Əliyev dünyanın gözü ilə.

Mən Sizin strateji uzaqgörənliyiniz və qətiyyətiniz sayəsində həyata keçən bugünkü mərasimə təşrif buyurmuş hökumət və şirkət rəhbərlərini alqışlayıram. Amerika Birləşmiş Ştatları möhkəm sülhün və tərəqqinin təmin edilməsi üçün Xəzərin enerji ehtiyatları sayəsində Sizinlə uzun illər davamlı əməkdaşlıq etmək niyyətindədir.

***Corc Buş,***
***ABŞ Prezidenti***

Heydər Əliyev Rusiya Federasiyasında nəinki Azərbaycanın, həm də keçmiş Sovet İttifaqının görkəmli siyasi xadimi kimi məşhurdur. Biz bütün bunları yaxşı xatırlayır və bilirik. Bu mənada o, Azərbaycan miqyaslı

siyasətçi deyildir, hətta bütün postsovet məkanında məşhur adamdaır.

Görkəmli dövlət xadimi və siyasi xadim kimi Sizə Rusiyada səmimi hörmət hissləri bəsləyirlər.

Azərbaycan xalqının rifahı naminə çoxşaxəli fəaliyyətimiz Sizə bütün dünyada geniş şöhrət qazandırmışdır.

***Vladimir Putin,***
***Rusiya Federasiyasının***
***Prezidenti***

Biz Azərbaycanı və prezident Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik.

Biz inanırıq ki, Azərbaycan müasir dünyada həlledici iqtisadi və siyasi rol oynayır. Həmin rolu inkişaf etdirməkdən ötrü biz Sizinlə birlikdə işləmək istəyirik. İcazə verin, ölkəmizdə əldə olunmuş tərəqqi, bunun naminə gördüyünüz iş münasibətilə Sizi təbrik edirəm. Şəxsən mənim üçün böyük şərəfdir ki, Sizi burada salamlayıram.

***Toni Bleyer,***
***Böyük Britaniyanın Baş***
***Naziri***

Azərbaycanı sabit, çiçəklənən bir dövlətə çevirmək yolunda qətiyyətiniz üçün bir daha öz ehtiramımı bildirirəm.

***Jak Şirak,***
***Fransa Respublikasının***
***Prezidenti***

Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxt yaradılmışdır. İndi yenidən canlanma gedir. Amma hörmətli Heydər

Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələ sabitlikdir.

Hörmətli Heydər Əliyev Azərbaycan üçün şəxsiyyətdir. Bunu onunla yaxın olduğuma görə söyləmirəm. Azərbaycana olan sevgimdən, məhəbbətimdən, söyləyirəm. Azərbaycan xalqının rifahı və səadəti baxımından söyləyirəm.

Hörmətli Heydər Əliyev dünyada tanınan adamdır. Hansı qapını döysə, o qapı açılır. İstədiyi zaman istənilən insan ilə danışır. Azərbaycan dövlətini dünyada etibarlı şəkildə təmsil etməkdədir.

***Süleyman Dəmirəl,***
***Türkiyənin 9-cu Prezidenti***

Uca şəxsiyyətinizin tərifəlayiq liderliyi altında müstəqil, demokratik bir dövlət olan Azərbaycan bütün dünyada hörmət qazanmışdır. Gənc Azərbaycan dövlətinin tanınmasında və öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə sıx bağlamasında Sizin kimi böyük bir şəxsiyyətin əvəzsiz xidmətlmri olmuşdur.

***Əhməd Necdət Sezər,***
***Türkiyə Respublikasının Prezidenti***

Sizin zəngin siyasi və həyat təcrübəniz, dərin biliyiniz və məqsədyönlülüyünüz səyəsində suveren Azərbaycan öz dövlətçiliyini möhkəmləndirmək, iqtisadi inkişaf və dünya birliyinə inteqrasiya olunmaq sahəsində böyük uğurlar qazanmışdır.

***Nursultan Nazarbayev,***
***Qazaxıstan Respublikasının Prezidenti***

Cənab Heydər Əliyev, Sizin şəxsiyətinizə bizim böyük hörmətimiz var.

*Məhəmməd Hatəmi,*
*İran İslam Respublikasının*
*Prezidenti*

Polşada Sizi görkəmli dövlət xadimi və dost dövlətin lideri kimi, bir neçə il bundan əvvəl Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliyin arxitektorlarından biri kimi tanıyır və qiymətləndirirlər. Biz Xəzər dənizi hövzəsinin strateji cəhətdən çox mühüm regionunda vəziyyətin normallaşdırılması üçün Sizin göstərdiyiniz diplomatik fəallığı xüsusi diqqətlə izləyirik.

*Aleksandr Krasnevski,*
*Polşa Respublikasının*
*Prezidenti*

1980-cı illərin axırları – 1990-cı illərin əvvəllərində Heydər Əliyev rəhbərlikdə olsaydı, Azərbaycanın başı bəlalar çəkməzdi.

*Oljas Süleymanov,*
*Qazax yazıçısı, ictimai-siyasi*
*Xadim*

Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqi, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət-bir sözlə, şəksiz liderdir.

*Zbaqnev Vjezinski,*
*ABŞ-ın dövlət və siyasət*
*xadimi*

## HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNİN, ONUN HAQQINDA OLAN ƏDƏBİYYATIN KİTABXANALARIN SORAQ-BİBLİOQRAFİYA APARATINDA YERLƏŞDİRİLMƏSİ

Heydər Əliyev irsinin çoxsalı oxucu kütləsinə çatdırılması üçün bütün mədəni-maarif müəssisələri, o cümlədən kitabxanalar qarşısında mühüm vəzifələr durur. Əlbəttə, bunların yerinə yetirilməsinə nail olmaq üçün kitabxanalar tərəfindən birinci növbədə geniş və məzmunlu tədbirlər planı hazırlanmalıdır. Həmin planda xalqımızın ümummilli lideri Heydər Əliyevin əsərlərinin və onun haqqında çapdan buraxılmış çoxsaylı nəşrlərin istənilən səviyyədə komplektləşdirilməsinə, onun kataloqlarda məntiqi cəhətdən düzgün əks etdirilməsinə ciddi tələbkarlıqla yanaşılmalıdır. Tipindən, idarə mənsubiyyətindən asılı olmayaraq, hər bir kitabxana özünün əlifba və sistemli oxucu kataloqlarında və biblioqrafik kartotekalarında xüsusi rubrika açmalı və yuxarıda qeyd etdiyimiz ədəbiyyatı burada xüsusi ardıcıllıqla yerləşdirməlidir.

Tədbirlər planında Milli, Elmi və xüsusi elmi kitabxanaların və əsas etibarilə mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS) oxu zallırının nəzdindəki yardımçı ədəbiyyat fondlarının tərkibində Heydər Əliyevin, həmçinin onun haqqında olan əsərlərin yerləşdirilməsinə xüsusi fikir verilməlidir. Planda kitabxanaların kataloq və kartotekalarında Heydər Əliyevə həsr olunmuş çoxsaylı bədii ədəbiyyatın ayrıca rubrika altında yerləşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

Kitabxana işçiləri elə etməlidirlər ki, MKS-lərin böyük filiallarında Heydər Əliyevin öz əsərləri və onun haqqında olan kitablar müəyyən sayda öz əksini tapmış olsun. Kitabxanaçılar bu məsələnin düzgün həll olunması üçün

sistemin mərkəzi kitabxanasının mubadilə şöbəsinin imkanlarından istifadə etməlidirlər. Belə ki, Heydər Əliyevlə bağlı bu şöbədə toplanmış kitablardan ehtiyacı olan filiallara az da olsa, müəyyən nüsxələr çatdırılmalıdır.

Kitabxana işçiləri ümummilli liderimiz Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» adlı mükəmməl nəşrinin 12 cildliyini, «Azərbaycan bütün azərbaycanlıların vətənidir: Azərbaycanlıların Ümumrusiya Konqresində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi: (Moskva 22 iyun 2000-ci il)», «Heydər Əliyev və Gəncə: Fotoalbom (B.,1999)», İ.Hüseynovanın «Müstəqilliyimizin təminatçısı (B., 2003)», «Vətən, xalq, prezident haqqında düşüncələr (B., 2002)», «Heydər Əliyev dünyanın gözü ilə (B., 2003)», «Heydər Əliyev və Azərbaycan rabitəsi (B., 2002)», «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı (B., 2003)», «Azərbaycan nefti dünya siyasətində. Çoxcildliyin 5 cildi», «Heydər Əliyevlə Azərbaycanda gömrük sisteminin təkamülü. (İqtisadi təhlükəsizlik konsepsiyası üzrə) (B., 2000)», «Azərbaycan gəncliyi Aəzərbaycanın gələcəyi (B., 2003)», «Heydər Əliyev və müasir Azərbaycan: I Ümumrespublika Əliyevşünaslıq konfransının materialları (B., 2003)», «Heydər Əliyev və Azərbaycan diasporu (B., 1999)», «Heydər Əliyev və milli mentalitet fəlsəfəsi (B., 2003)», F.Mədətovun «Yeni Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı: Sabir Əhmədin romanları əsasında (B., 2003)», Eldar İsmayılın «Böyük öndər (B., 2004)» və s. nəşrlərin kitabxanalrın əsas fondlarında yerləşdirilməsinə, həmçinin oxu zallarının yardımçı ədəbiyyat fondalarında toplanmasına xüsusi qayğıkeşliklə yanaşmalı və həmin nəşrlərdə oxucuların yetərncə istifadə etmələrinə önəmli şərait yaradılmalıdır.

## KİTABXANALARDA HEYDƏR ƏLİYEV İRSİNİN TƏBLİĞİNDƏ ƏYANİ VƏ ŞİFAHİ TƏBLİĞAT FORMALARININ ROLU

Heydər Əliyevin əsərlərinin və onun haqqında çapdan buraxılmış kitabların, həmçinin dövrü mətbuat materiallarının geniş oxucu kütləsinə çatdırılması üçün kitabxanalar əyani və şifahi təbliğatın: kitab sərgilərindən, kitabxana plakatından, stendlərdən, İşıq qəzetindən, yardımçı qutulardan, söhbətlərdən, oxucu kofranslarından, biblioqrafik xülasələrdən, məruzə və mühazirələrdən və s. formalarından önəmli şəkildə istifadə etməlidirlər.

Əvvəlcə əyani təbliğat formalarının imkanlarına diqqət yetirək. Hər şeydən əvvəl əyani təbliğat daha geniş oxucu kütləsini sistemli şəkildə əhatə edə bilir və onların mütaliəsinə müsbət təsir göstərir. Belə ki, əyani yollarla ədəbiyyat təbliğinin formaları olan kitab sərgiləri və kitabxana plakatları 15-20 gündən tez dəyişdirilmir və bu müddətdə ona mümkün qədər çox adam baxa bilir. Əyani təbliğat bilavasitə gözlə görmə prinsipinə əsaslanır. Yeri gəlmişkən deyək ki, bilavasitə gözlə görüb qavramanın daha təsirli iş metodu olduğu artıq kitabxanaların psixoloji və praktiki iş təcrübələri ilə təsdiqlənmişdir.

Kitabların xarici görünüşünün oxucular qarşısında nümayiş etdirilməsi hər vaxt onun məzmununun təbliği üçün kifayətləndirici tövsiyə rolunu oynaya bilməz. Ona görə də oxücüya kitabla bilavasitə tanış olmaq imkanı verilməlidir. Şərait yaratmaq lazımdır ki, oxucu kitabı əlinə götürüb vərəqləyə bilsin, mətnə baxa bilsin, kitabın girişindən və mündəricatından istifadə etsin və nəhayət onun şəkillərinə və illüstrasiyalarına baxa bilsin. Bu vaxt oxucu həmin kitabın nədən bəhs etdiyini, orada hansı

problemlərin həlli yolları göstərildiyini və həmin kitabın ona lazım olub-olmadığını dəqiq müəyyənləşdirə bilər.

Yeri gəlmişkən açıq qeyd edək ki, bu gün bir sıra şəhər, rayon və kənd kitabxanalarında kitab sərgilərinin və kitabxana plakatlarının imkanlırından lazımınca istifadə olunmur. Bəzi hallarda kitab sərgilərinin və kitabxana plakatlarının başlıqları düzgün seçilmir, onlar göz oxşayan xətlə yazılmır. Ədəbiyyatın sistemləşdirilməsində bir sıra nöqsanlara yol verilir. Qeyd etmək lazımdır ki, bütün kitabxanalara, xüsusən də mərkəzləşdirilmiş kitabxana sistemlərinə (MKS) xatırlatmaq istərdik ki, kitab sərgilərində və kitabxana plakatlarında birinci növbədə kitabları, yaxud onların üz qabıqlarını nümayiş etdirməli və bununla yanaşı, yeri gəldikcə illüstrasiya materiallarından, sitatlardan da istifadə olunmalıdır.

Bütün kitabxanalara, xüsusən də MKS-lərə tövsiyə edilir ki, «Millətin xilaskarı», «Əbədiyaşar lider», «Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur», «Ürəklərdə əbədi yurd salan insan», «Heydər Əliyev fenomenizmini gələcək nəsillər araşdıracaqdır», «Ürəklərdə heykəlini ucaldan lider», «Sağlığanda əfsanəyə çevrilən insan», «Heydər Əliyev ideyaları qalib gəlir», «Heydər Əliyev-82» və s. başlıqlar altında kitab sərgiləri, kitabxana plakatları, məruzələr və mühazirələr təşkil və tərtib etsinlər.

İndi isə fikrimizi əyani cəhətdən açıqlamaq üçün «Heydər Əliyev-82» başlığı altında kitab sərgisinin təxmini nümunəsini verməyi məqsədəuyğun hesab edirik.

**1.** Başlıq: «Heydər Əliyev-82».

**2.** Heydər Əliyevin şəkli.

**3.** Əliyev Heydər. Müstəqillik yolu: seçilmiş fikirlər.- B.: Azərbaycan Un-ti, 1997.- 135 səh.

**4. Sitat**: *«Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın rifahının yaxşılaşdırılmasına həsr etmişəm. Həyatımı Azərbaycan torpağında qurub-yaratmağa həsr etmişəm».*

***Heydər Əliyev.***

**5.** Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.- B.: Azərnəşr, 1997.

I kitab. İyun, 1993 may, 1994. 1997. 597 s.

**6.** Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.- Bakı.: Azərnəşr, 1997.

II kitab. May, 1994-dekabr, 1994. 1997.588 s.

**7.** Heydər Əliyev mədəni irsimizin keşiyində /Azərb. Resp. Prezidentinin katibliyi.- B., 2001.

I kitab. 2001.- 438 s.

**8.** Heydər Əliyev mədəni irsimizin keşiyində. /Azərb. Resp. Prezidentinin katibliyi.- B., 2001

II kitab. 2001.- 547 s.

**9.** Əliyev Heydər. «Azərbaycan nefti dünya siyasətində.- Bakı.: Azərbaycan nəşriyyatı, 1997.- 480 s.

**10. Sitat:** *Siz gəncsinin. Bu gün qarşınızda böyük vəzifələr durur. Amma sonra gələn nəsillər sizin təcrübənizdən yaratdığınız işlərdən istifadə edəcəklər. Siz də Azərbaycanın həyatında öz xidmətlərinizi göstərəcək,*

*ölkəmizi inkişaf etdirəcək, sonra gələn nəsillərə böyük iz qoyacaqsınız. Gənclik xoşbəxtlikdir. Bunu bilin.*

*İnsanın həyatında gənclik dövründən gözəl dövr yoxdur. Hər bir gənc isə bu gənclik dövründən gərək maksimum səmərəli istifadə etsin. Gənclik dövründə boş, mənasız keçirilən bir gün sonra böyük itkilərə gətirib çıxarır. Hər gündən, dəqiqədən səmərəli istifadə olunmalıdır ki, bizim gənc nəsil yaxşı bilik, təhsil alsın, elmin, həyatın sahələrində olan təcrübəni mənimsəsin, həyatda, cəmiyyətdə həm özü, həm də ölkə, xalq üçün faydalı olsun».*

***Heydər Əliyev.***

**11. Sitat:** *«Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Əziz prezidentimiz Cənab Heydər Əliyevin əsəri olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Heydər Əliyevin yolu ilə yeni qələbələrə doğru gedəcəyik.*

*…İnsan tarixə öz əməlləri ilə düşür. Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri bütün təşəbbüsləri bir məqsəd daşıyırdı.- Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək. Müstəqilliyimizi möhkəmləndirmək, ölkəmizdə demokratik cəmiyyət qurmaq. Bütün bu istiqamətlərdə işlər davam etdirilir. Hamımız, Azərbaycan xalqı bu siyasətə sadiqdir. Biz bu siyasəti davam etdirəcəyik. Azərbaycanda bu siyasətin alternativi yoxdur. Xalqımız da, beynəlxalq ictimaiyyət də bunu çox yaxşı bilir».*

***İlham Əliyev.***

**12.**

Ulduzlara, uçan quşa dönəydim.
Ay da yollarıma nur ələyəydi
Məğrur yerişinlə qoşa dönəydin,
Sənə yer üzündə yer eləyəydim.

Dinlə kədərimin pıçıltısını –
Mən yoxsa bilirəm ayrılıq nədir!…
Küləklər könlümün qışqırtısını
Kaş ki, kainata yaya biləydi.
Könüllər yaşadır gur nəfəsini,
Sənsiz hər bir anın öz qüvvəsi var.
Müqəddəs səsinin xatirəsini
Anlada bilərmi çağlayan çaylar?

Bulud karvanına qoşulum yenə,
Gəzim asimanı, hardasan görüm.
Çatıb ucalığa, yetişim sənə,
Əlimi əlindən yapışan görüm!.

***Leyla Əliyeva.***

**13.** Əliyev İ. Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycanın mədəniyyət və incəsənəti bundan sonra da yeni zirvələr fəth edəcəkdir: Dövlət Filarmoniyası binasının təntənəli açılış mərasimində Azərbaycan prezidenti İlham Əliyevin nitqi //Azərbaycan.- 2004.- 29 yanv.

**14.** Əliyev İ. Bakıda «Heydər Əliyev fondunun təntənəli açılışında Azərbaycan prezidenti İlham Əliyevin nitqi //Azərbaycan.- 2004.- 11 may.- S 2-3»

**15**. Mehdiyev R. Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır //Azərbaycan.- 2004.- 12 dek.- S 5.

**16.** Səfərli M. 50 milyon azərbaycanlının güvəndiyi dövlətin banisi: Heydər Əliyev dünya azərbaycanlılarını vahid ideologiya, yekdil məqsəd, müstəqil fəaliyyət proqramı ətrafında birləşdirdi //Azərbaycan.- 2004.- 12 dek.- S 10.

**17.** Təbrizli S. Nəsillərə örnək şəxsiyyət: (Heydər Əliyev Haqqında) //Azərbaycan.- 2004.- 9 may.

**18.** Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu: Azərb. Respub. Prezidenti Heydər Əliyevin yubileyinə həsr edilmiş konfransın materialları / Yeni Azərbaycan Partiyası.- B.: Azərbaycan, 2003.- 637 s., şəkilli.

**19.** Heydər Əliyev: Biblioqrafik məlumat kitabı /Tərt. prof. Abuzər Xələfov, Solmaz Sadıqova; Baş red.: Məmməd Əlizadə.- Bakı: Bakı un-ti; 2003.- 430 s.

